Ədəbiyyat qəzeti

5 dekabr / 2020



# Ömür yazı və mif kimi

*(Ustad Kamal Abdullanın 70 yaşına)*

**Rüstəm KAMAL**

Xatırlama prosesini və xatirələri çox sevsəm də, təəssüf ki, kiçik bir qəzet yazısında geniş xatirə danışmağa imkan yoxdur. Ömür məkanımda, yaddaşımın alt yapısında onun obrazının sirli aurasını həmişə hiss etmişəm.

Bəlkə də mistik hadisədir - mənim Kamal müəllimlə ilk tanışlığımın səbəbkarı da "Kitabi-Dədə Qorqud"dur. Unudulmaz ustadım Yaşar Qarayev namizədlik dissertasiyasına rəsmi opponent kimi məhz Kamal Abdullanı məsləhət görmüşdü...

"Kitabi-Dədə Qorqud" Xalq yazıçısı, akademik Kamal Abdullanın ömür mifinin ayrılmaz bir parçasıdır. Çünki onun üçün "Söz mifin təzahürüdür və onu cəmiyyət üzvləri belə də qəbul eləməlidirlər. Sözün kultu öz-özünə gətirib mifin kultuna çıxarmalıdır" ("Gizli Dədə Qorqud"). Onun taleyindən və əsərlərindən bir Dədə Qorqud mifi keçir. Bu mif yalnız onun filoloji araşdırmalarının əsas obyekti deyil, həm də nəsr və dram əsərlərinin cövhəridir. Səhv etmirəmsə, möhtəşəm abidəmizlə bağlı araşdırmaları ("Gizli Dədə Qorqud", "Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud - 2" və "Kitabi-Dədə Qorqud"un poetikasına giriş" və s.) toplanmış "Seçilmiş əsərlər"inin IV cildini "Qorqudnamə" adlandırıb. Ona görə də "Yarımçıq əlyazma" romanında tarixi-mifik yaddaşın bir parçasını götürüb yenidən nəql edir. Bir kitabxanada təsadüfən tapılmış yarımçıq əlyazmanın tarixi gerçəkliyi obyektiv təsvir etdiyinə inanır və inandırır. Türkiyədə məqalə müəlliflərindən biri bu romanı oxuyandan sonra Dədə Qorqud boylarının yeni əlyazmasının tapıldığını yazmışdı.

Rektor otağında divardan asılmış qara lövhədə öz xətti ilə "Kitabi-Dədə Qorqud"dan bir cümlə yazmışdı: "Ol qızın üç canvər qalınlığı-qaftanlığı vardı". İçəri girəndə istər-istəməz bu cümlə diqqətini cəlb edir, onun sehrinə düşürdün. Cümlə ovsun mətninə çevrilmişdi.

Etiraf edirəm ki, Kamal Abdullanı öncə ustad esseist kimi sevmişdim. Bəlkə də bu mənim esse janrına sevgimdən irəli gəlirdi, bilmirəm? Nəsri ilə tanışlığım sonra baş verdi. Hər halda bədii-fəlsəfi üslubların qovşağında yazılmış esselərində onun orijinal mediativ düşüncəsinin üfüqlərini görmüşdüm, ömür bütövlüyünün fraqmentləri kimi oxumuşdum...

Bir dəfə, görüşlərimizin birində böyük yazıçımız İsa Muğanna "Yarımçıq əlyazma" oxuduğunu və çox bəyəndiyini (yazıçının qızı Sevinc Muğanna bu söhbətin şahididir) söylədi. Fərqli ədəbi-bədii dünyagörüşünə malik bir yazıçının bu etirafı onda mənə qəribə gəlmişdi. İsa Muğannanın son dövr əsərləri ("Qəbristan", "Gurun", "Türfə"...) ilə Kamal Abdullanın "Sehrbazlar dərəsi"ni müqayisə edəndə həmin estetik həssaslığın səbəbini anladım: Bu romanlarda personajların dialoqları "spiritual seansları" xatırladır. Yuxularda, nağıllarda olduğu kimi, romanların təhkiyə strukturunda daxili əlaqələr sanki pozulur, bu əlaqələr assosiasiyalarla, simvolik qatlarla bərpa edilir və sən sanki virtual-mistik atmosferin içinə düşürsən...

Mənə həmişə nədənsə elə gəlib ki, Kamal müəllim xatırladığı insanlar ilə mif səviyyəsində dialoqa girir. Məsələn, Ənvər Məmmədxanlı, Vaqif İbrahimoğlu, Mövlud Mövlud... obrazları onun yaddaşında mifik mətnlər, mifik obrazlar kimi yaşayır. Ona görə də xatirələrin yaratdığı mifləri Yazıya, Əlyazmaya çevirir.

Və bilir ki, istənilən Yazı onsuz da yarımçıq qalır...